# İstanbulda "Dekolonizasiya: İntibah dövrünün başlanğıcı" mövzusunda konfrans keçirilib

## Konfrans iştirakçıları Fransa Prezidenti Makrona məktub ünvanlayıblar

**Fevralın 24-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Türkiyənin İstanbul şəhərində keçirilən "Dekolonizasiya: İntibah dövrünün başlanğıcı" mövzusunda beynəlxalq konfransın iştirakçıları Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adaları xalqlarının məruz qaldıqları müstəmləkəçilikdən dərin narahatlıqlarını ifadə etmək üçün Fransa Prezidenti Emmanuel Makrona məktub ünvanlayıblar.**




AZƏRTAC xəbər verir ki, məktubda 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin imzalanmasından sonra, özünüidarəetmənin beynəlxalq normalarının Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının öz müqəddəratını təyinetmə və müstəmləkəsizləşdirmə üçün tələb olunan şərtləri nəzərdən keçirməsi sayəsində inkişaf etməyə başladığı vurğulanıb. Qeyd olunub ki, 1946-1960-cı illərdə BMT Baş Assambleyası tərəfindən müvafiq qətnamələr qəbul edildi və bu beynəlxalq prinsiplər üzrə qlobal konsensus yarandı. 1960-cı ildə dekolonizasiya haqqında tarixi bəyannamənin (1514 saylı qətnamə), ondan sonra 1541 saylı qətnamənin qəbul edilməsi ilə proses sürətləndi. Bu hadisələr müstəmləkə ərazilərində olan ölkələrin müstəqillik uğrunda hərəkatına təkan verdi.

Diqqətə çatdırılıb ki, yuxarıda qeyd olunan tarixi qətnamədən 64 il keçməsinə baxmayaraq, Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adaları xalqları hələ də müstəmləkəçiliyin yeni təzahürlərinə məruz qalırlar.

Vurğulanıb ki, 2023-cü ildə beynəlxalq əhəmiyyətli qeyri-hökumət təşkilatı kimi yaradılmış Bakı Təşəbbüs Qrupunun (BTQ) əsas məqsədi müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizəni dəstəkləməkdir.

Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilən beynəlxalq konfranslar zamanı Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarının müstəqillik tərəfdarları və millətçiləri tərəfindən məşğulluq, mənzillə təminat, təbii sərvətlərin istismarı və digər sahələrdə ayrı-seçkilik halları, o cümlədən hökumətinizin himayəsi altında təşkil edilən kütləvi emiqrasiya ilə bağlı ilk mənbədən çoxsaylı məlumatlar verilib.

Məsələn:

- Fransa inhisarlarının xeyrinə əhalinin həddindən artıq ərzaq asılılığını (ərzaq məhsullarının 80 faizdən çoxu Fransadan gəlir), həyatın yüksək qiymətini təşkil edən düşünülmüş zəif iqtisadi inkişaf strategiyasının aidiyyəti ölkələrdə həyata keçirilməsi; yoxsulluq (Fransız Qvianası əhalisinin 50 faizi yoxsulluq həddində yaşayır) və kütləvi işsizlik, beləliklə, bu ərazilərin gələcəyini ciddi şəkildə təhlükə altına alan hər cür sui-istifadələrin (zorakılıq, silah və narkotik ticarəti) həyata keçirilməsi;

- Qviana ilə bağlı yerli və qəbilə xalqları haqqında 1989-cu il tarixli 169 saylı Konvensiyasının ratifikasiya edilməməsi;

- Fransız mədəniyyəti hegemonluğu institutları və getdikcə yoxa çıxmaq təhlükəsi altında olan yerli dilləri arxa plana keçirən və xalqlarımızın tarixinə, coğrafiyalarımıza uyğun gəlməyən fransız məktəb proqramlarını uşaqlarımıza tətbiq edən assimilyasiya siyasəti nə xalqlarımızın tarixinə, nə coğrafiyamıza, nə mədəniyyətlərimizə, nə də gələcəyimiz üçün ambisiyalarımıza uyğun gəlir;

- Torpaqların zəbt edilməsi (Fransız Qvianası torpaqlarının 90 faizi Fransa dövlətinə aiddir), milyonlarla kvadratkilometr Eksklüziv İqtisadi Zonalarımıza (ZEE) nəzarət (bu, Fransanı 11 milyon kvadratkilometr ZEE ilə dünyada ikinci dəniz gücü edir) və onilliklər ərzində gənclərimizin Fransaya deportasiyası siyasəti vasitəsilə Qvadelupa və Martinikada görünməmiş bir demoqrafik böhrana, təbii ehtiyatların talanmasına böyük imkan yaradan məskunlaşma müstəmləkəsi;

- Bütün müqavimət hərəkatlarını cinayətləşdirən və rüşvətxorları qoruyan iki səviyyəli müstəmləkə ədliyyə sisteminin yaradılması (Martinika və Qvadelupada xlordekon zəhərlənməsi və torpaq istilasına qarşı mübarizə aparan gənclərin həbsi, korsikalılar üçün onların siyasi dustaq statusunu tanımadan onları mühakimə edən və onların dustaqlıq şəraitinə qeyri-bərabər münasibət göstərən müstəsna yurisdiksiyaların yaradılması);

-Polineziya müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına yenidən daxil edildikdən bəri "boş kreslo" siyasəti;

- Yerli xalqlarla zərrə qədər də məsləhətləşmədən ərazilərdən böyük Qərb dövlətlərinin Hind-Sakit okean zonasından (Polineziya, Yeni Kaledoniya), eləcə də Karib-Amerika zonasından (Fransız Qvianası, Martinika, Qvadelupa) və Korsikadan (Solenzara bazası) müharibə hazırlıqlarında geostrateji hərbi bazalar kimi istifadə edilməsi;

- Numea Sazişinə əsasən başlayan müstəmləkəsizləşdirmə prosesinə əməl edilməməsi, beləliklə, qeyri-qanuni referendumun keçirilməsi və seçicilərin sayının azalması.

Eyni zamanda vurğulanıb ki, tarix və xalqları qarşısında məsuliyyətlərini anlayaraq, Fransanın son müstəmləkələri olan Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adaları təşkilatlarının nümayəndələri və Bakı Təşəbbüs Qrupu Prezident Makrondan Fransa hökumətinin beynəlxalq qaydalara və təcrübələrə zidd hərəkətlərinin qarşısını almasını tələb ediblər.

"Biz yerli xalqların mədəni və dini irsinin vəziyyəti ilə əlaqədar hesabat hazırlamaq üçün UNESCO-nun rəhbərliyi altında beynəlxalq ekspert qrupunun yaradılmasının və dərhal müvafiq ərazilərə göndərilməsinin zəruriliyini vurğulayırıq.

Biz Fransa hökumətini ətraf mühit, iqtisadiyyat, insan haqları və yerli xalqların hüquqları sahələrində vəziyyətin yerində öyrənilməsi məqsədilə ATƏT-dən xüsusi missiyanın göndərilməsini tələb etməyə çağırırıq.

Bəşəriyyətimizin qlobal istiləşmənin böyük fəsadları və gələcəyi təhdid edən görünməmiş təhlükələr ilə üzləşdiyi bir vaxtda sizdən (Prezident Makron - red.) BMT-nin Nizamnaməsinin, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarına hörmətlə yanaşmağınızı xahiş edirik", - deyə məktubda qeyd olunur.